**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX ƏSR TÜRK TARİXİ ROMANLARINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR: ƏNƏNƏ VƏ MÜASİRLİK (1950-1980-Cİ İLLƏR)

İxtisas: 5717.01 – Türk xalqları ədəbiyyatı

Elm sahəsi: Filologiya

**İddiaçı:** **Arzu Tofiq qızı Dadaşova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI-2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Türk filologiyası" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Səriyyə Gülağa qızı Gündoğdu**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Əsgər Adil oğlu Rəsulov**

filologiya elmləri doktoru, dosent
**Eşqanə Akif qızı Babayeva**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Lamiyə Sabir qızı Rəhimova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.18 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Göyhər Baxşəli qızı Baxşəliyeva**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Xanımzər Əli qızı Kərimova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Elman Hilal oğlu Quliyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Milli tarix mövzusu, tarixi hadisələr və şəxsiyyətlər daim ədəbiyyatın diqqət mərkəzində olmuşdur. Bu da tarixi bədii əsərlərə, xüsusən də tarixi roman janrına olan marağın artması ilə nəticələnmişdir. Tarixi romanlarda tarixin ayrı-ayrı dövrləri, həmin dövrün ictimai-siyasi, sosial-mədəni vəziyyəti, xalqların məişəti, görkəmli tarixi şəxsiyyətlərin, sənətkar və şairlərin obrazları və s. canlandırılır. Türk ədəbiyyatında tarixi roman janrının yaranması XIX əsrin sonuna təsadüf edir. Bu isə ölkə həyatında baş verən ictimai-siyasi proseslərlə bağlı idi. XIX əsr Türkiyə tarixində ictimai-siyasi proseslər baxımından mürəkkəb dövr olaraq yadda qalmışdır. XVII əsrdən başlayaraq daxili və xarici çəkişmələr nəticəsində zəifləməyə başlayan Osmanlı dövləti artıq XIX əsrdə dağılma və parçalanma təhlükəsi ilə üz-üzə qalmışdır. Altı əsrlik tarixə malik Osmanlı dövlətinin dağılmasının qarşısını almaq üçün bir sıra islahatlar həyata keçirilsə də, bunlar heç bir nəticə verməmişdir. Avropalıların "xəstə adam" adlandırdığı Osmanlı dövləti parçalanaraq ingilis, fransız və yunan ordularının işğalına məruz qalmışdır.

Osmanlı dövlətində baş verən ictimai-siyasi hadisələr sözsüz ki, yaranan yeni türk ədəbiyyatına da təsir etmişdir. Xalqın taleyinə biganə yanaşmayan dövrün ziyalıları, yazıçıları yaranan mövcud ictimai-siyasi, sosial, mədəni-mənəvi problemlərin mənşəyini, onların həlli yollarını axtarmağa başlamışlar. Dövrün ədibləri zamanın nəbzini tutmağa, Divan ədəbiyyatının dar çərçivəsindən ayrılaraq Avropa ədəbiyyatı təsirində yeni ədəbi nümunələr yaratmağa çalışmışlar. Zəifləyən dövlətin güclənməsi xalqın maariflənməsinə bağlı olduğu üçün dövrün ədibləri müxtəlif janrlarda, ideya, məzmun və forma cəhətdən yeni əsərlər yaratmışlar. Xüsusilə də xalqın milli-mədəni dəyərlərini öz əsərlərində yenidən işləyərək mənəvi ruhu gücləndirməyə çalışmışlar. Bu mənada tarixi roman janrı mühüm əhəmiyyət kəsb etmişdir. Beləliklə, yazıçılar türk tarixinin ayrı-ayrı dövrlərinin ictimai-siyasi hadisələrini mövzu seçməklə tarixi roman janrına üz tutmuşlar. Dövrün ziyalı və ədibləri

keçmişin parlaq səhifələrinə yönələrək xalqın mübarizə əzmini yüksəltmək, onlarda sabaha inam yaratmaq məqsədilə tarixin dərinliklərinə enib, qələbə dolu günləri öz əsərlərində təsvir etməklə xalqda ruh yüksəkliyi oyatmağa çalışırlar. Buna görə də tarixi romanlar xalqın milli şüurunun formalaşması və inkişafında mühüm rol oynamış, eyni zamanda ədəbi fikrin inkişafına da öz təsirini göstərmişdir.

Türk ədəbiyyatında tarixi roman anlayışı və janrın adlandırılması məsələsi, türk ədəbi tənqidini müntəzəm olaraq məşğul etmişdir. Tənzimat dövrü türk romanının banilərindən sayılan Əhməd Midhət və Namiq Kamal, eyni zamanda türk ədəbiyyatında tarixi roman janrının da yaradıcıları hesab olunurlar. Əhməd Midhət Əfəndinin ilk tarixi roman cəhdlərindən olan "Yeniçərilər" (1872) bu janrın ibtidai forması olub, daha çox macəra xüsusiyyəti daşıyır. Qərb ədəbiyyatında yaranan tarixi roman janrının qanun-qaydalarına, poetik normalarına cavab verən ilk tarixi roman dövrün romantik şair və yazıçısı Namiq Kamal tərəfindən 1880-ci ildə yazılan "Cəzmi" romanıdır. Məhz bu əsər türk ədəbiyyat tarixində ilk tarixi roman janrı olaraq müəyyənləşir. O, türk ədəbiyyatında tarixi roman janrının gələcək inkişafını təmin edə biləcək zəngin bir irs qoyub getmişdir.

"Cəzmi"dən sonra Cümhuriyyətə qədərki dövrdə ədəbi-bədii dəyəri yüksək, ciddi mənada tarixi roman yazılmamışdır. Türkiyə tarixinin şanlı səhifələrindən olan Milli Mübarizənin qələbəsindən sonra Cümhuriyyətin yaranması tarixi romana olan marağın artması ilə nəticələnmişdir. 1923-50-ci illərdə yazılan tarixi romanlarla yazıçılar əsasən tarixi sevdirmək, ona olan marağı artırmağı qarşılarına məqsəd qoyurlar. Qəzetlərdə hissə-hissə (təfriqə şəklində) nəşr edilən, dastan və hekayə xarakterli bu romanlar maraqla oxunsa da, bəsit quruluşlu, forma və estetik yöndən zəif əsərlər kimi dəyərləndirilmişlər.

1950-ci illərdən sonra roman mövzularında müxtəliflik, roman yazma metodunda da dəyişiklik və inkişaf nəzərə çarpır. 1960-cı ildən başlayaraq baş verən siyasi, sosial və iqtisadi dəyişikliklər və onların nəticələri müəlliflərin də diqqətindən kənarda qalmamışdır. Məhz bu dövrdə, xüsusilə də 1950-80-ci illərdə nəşr olunan 150-dən çox tarixi roman müəlliflərindən Abdullah Ziya Kozanoğlu, Murat

Sərtoğlu, Zuhuri Danışman, Oğuz Özdəş, Firudin Fazil Tülbəntçi, Yavuz Bahdıroğlu, Ənvər Bənhan Şapolyo, Rəşat Əkrəm Koçu, Yılmaz Boyunağa, Fikrət Arıt, Talip Apaydın, İlhan Tarus, Kamal Tahir, Tarıq Buğra, Samim Qocagöz, Mustafa Nəcati Səpətçioğlu, Əminə Işınsu və s. kimi 30-dan çox yazıçının adlarını çəkmək olar.

Dissertasiyanın aktuallığını şərtləndirən amillərdən biri, məhz XIX əsrin sonlarında yaranan türk tarixi roman janrının təşəkkül və inkişaf tarixinin nəzəri-estetik problemlərinin Azərbaycan türkologiyasında müstəqil şəkildə araşdırılmamasıdır. Həmçinin indiyə qədər Namiq Kamal (1840-1888), Əhməd Midhət (1844-1911) kimi sənətkarın yaradıcılığı istisna edilməklə 1950-80-ci illər tarixi roman janrı və bu barədə aparılan ədəbi-tənqidi mülahizələr idiyə qədər Azərbaycan şərqşünaslığında sistemli şəkildə öyrənilməmişdir. Bu mövzuda türk ədəbiyyatında aparılan tədqiqatlara istinad edilərək estetik fikir öyrənilmiş və yeni mülahizələr və nəticələr əldə edilmişdir.

Türk ədəbiyyatında tarixi romanla bağlı bir çox tədqiqat işləri aparılmışdır. Hülya Arqunşah, Ramazan Topdemir, İlknur Tatar Kırılmış "Türk ədəbiyyatında tarixi romanlar" mövzusunda tarixilik prinsini qoruyaraq bir-birinin davamı olan araşdırmalar aparmışlar: H.Argunşah "Türk ədəbiyyatında tarixi romanlar" (Türk tarixi ilə bağlı), İ.T.Kırılmış "Türk ədəbiyyatında tarixi romanlar" (Türk tarixi ilə bağlı 1961-1965), R.Topdemir, "Mövzusunu türk ədəbiyyatından alan tarixi romanlar (1961-1970).[1]

Azərbaycan türkologiyasında bütövlükdə türk tarixi roman janrının təşəkkül və inkişaf dövrlərinə dair monoqrafik sistemli araşdırmalar aparılmasa da, Türkiyə ədəbiyyatı tarixlərinə, türk nəsrinə və onun nümayəndələrinin əsərlərinə dair ölkəmizdə nəşr edilən kitab, monoqrafiya və elmi məqalələrdə münasibət bildirilmişdir. Dissertasiya işinin yazılmasında Azərbaycanın

[1] Hülya Eraydın Argunşah, "Türk Edebiyatında Tarihî Roman (Türk Tarihi İle İlgili)", Doktora tezi, Marmara Üniversitesi, 1990, 432 s.; Kırılmış İlknur Tatar "Türk Edebiyatında Tarihi Romanlar" (Türk tarixi ilə bağlı 1961-1965), Doktora tezi, İstanbul, 2007, 1135 s.; Ramazan Topdemir, "Konusunu Türk Edebiyatından Alan Tarihî Romanlar (1961-1970)", Doktora tezi, 2 cilt, İstanbul Üniversitesi, 2005. 765 s.

tanınmış ədəbiyyatşünas və türkoloqları Aydın Abiyev, Aqşin Babayev, Allahşükür Qurbanov, Xalidə Quliyeva-Qafqazlı, Sədaqət Qasımlı, Rəşid Quliyev, Nüşabə Araslı, Tofiq Məlikli, Əhməd Əhmədov, Jalə Əliyeva, Elman Quliyev, Allahşükür Qurbanov, Əsgər Rəsulov, Rüstəm Hüseynov, Maarifə Hacıyeva, Səriyyə Gündoğdu, Barat Osmanova, Eşqanə Babayeva, Şükufə Qədimova, Ramazan Əhmədov, Aydan Xəndan, Elmira Məmmədova, Həyat Məmmədova, Murad Dəyər, Lalə Qasımlı, Nurlanə Mustafayeva, Qəmər Alxanova, Günel Yunusova, Türkan Əliyeva, Ülkər Səmədova, Xanım Abdullayeva, Aytən Abbasova, Sevinc Əliyeva və başqalarının tədqiqatımızın obyekti və predmeti, eləcə də türk nəsri və onun janrları, türk yazıçılarının romanları ilə əlaqədar məsələlər haqqındakı konseptual fikir və mülahizələri nəzərə alınmışdır.[2]

---

[2] Abıyev A.M. Türkiyə ədəbiyyatı tarixi. 3 cilddə, II cild (I hissə). Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 2007, 280 s.; Türkiyə ədəbiyyatı tarixi. 3 cilddə, II cild (II hissə). Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 2007, 279 s.; Tənzimat dövrü Türkiyə ədəbiyyatı. Bakı: Azərnəşr, 2011, 47 s.; Məlikli T.Türkoloji və filoloji problemlər. Bakı: Elm və təhsil, 2017, 500 s.; Меликли Т. Сочинение 1. Истории литературы Турции. Баку: Елм ве техсил, 2016, 545 с.; Бабаев А. А. Очерки современной турецкой литературы. Москва: Восточная литература, 1958, 232 с.; Бабаев А.А. Социалъные мотивы в современной турецкой литературы. Баку: Элм, 1982; Rəsulov Ə. Türk sənədli-bədii nəsri. Bakı: Nurlan NPM, 2004, 428 s.; Əhmədov Ə. Rəşad Nurinin romanları. Bakı: Azərnəşr, 1956, 172 s.; Əliyeva J. Çağdaş türk şeirinin poetikası. Bakı: Elm, 2009, 91 s; Quliyev E. Türkiyə türk ədəbiyyatı. (XIX-XX əsrlər ). Bakı: 2003; Gündoğdu S. Mehmet Akif Ersoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü. Bakı: R.M. Kompani, 2012, 228 s.; Mustafayeva N. Səbahəddin Əli nəsrinin poetikası. Bakı: Mütərcim, 2017,192 s.; Ахмедов Р. С. Литературные процессы в новой турецкой литературе. Баку: Нафта- Пресс, 2002, 208 с.; Məmmədova H. Yaşar Kamal yaradıcılığında folklor motivləri: Fil. üzrə. fəls. dok..dis. avtoref. Bakı: 2010, 29 s. Alxanova Q. Bədii nəsrdə qadın xəyanətinin psixoloji motivasiyası // BDU dil və ədəbiyyat beynəlxalq elmi – nəzəri jurnal, 2011, N 1 (77), s. 106-108. Araslı N. N. Nizami və türk ədəbiyyatı. Bakı: Elm, 1980, 205 s.; Babayeva E. Nəcib Fazil Qısakürəyin yaradıcılıq yolu. Bakı: Elm və təhsil,2013, 196 s., Qurbanov A. Əbdülhaq Hamid. Bakı: Elm, 1987, 116 s., Xəndan A. Yəhya Kamal Bəyatlı yaradıcılığında sənətkarlıq xüsusiyyətləri. Bakı: Nurlan, 2002, 148 s., Məmmədova E. Osman Türkayın poetik irsi. Bakı: Elm, 2010, 256 s., Qasımova L. XX əsrin II yarısından sonra türk hekayəçiliyində ənənə və novatorluq (Mustafa Kutlunun yaradıcılığı əsasında ): Fil. üzrə fəl.dok...dis.avtoref. Bakı, 2014, 26 s. ; Səmədova,

XX əsrin 50-80-ci illərində yazılan türk tarixi romanları həm tarixi əhəmiyyətinə, həm mövzusuna, həm də bədii-estetik xüsusiyyətlərinə görə aktual hesab olunur. Dissertasiya işi milli dəyərlərin daşıyıcısı olan türk tarixi romanlarda ənənə, müasirlik, tarixilik kimi məsələlərin aydınlaşdırılması və sistemli tədqiqi baxımından da aktuallıq kəsb edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini Türkiyənin hər biri fərdi sənətkarlıq üslubuna malik Talip Apaydın, İlhan Tarus, Kamal Tahir, Tarıq Buğra, Samim Qocagöz, Əminə Işınsu, Mustafa Nəcati Səpətçioğlu kimi tanınmış türk yazıçılarının 1950-80-ci illərdə qələmə aldığı 20-dan artıq tarixi romanı təşkil edir. Bu çərçivədə dünya və Türkiyədə tarixi roman janrının təşəkkülünü və inkişafını şərtləndirən ictimai-siyasi və ədəbi faktorlar, janrın inkişaf mərhələləri kimi məsələlər də tədqiqata cəlb edilmişdir.

Tədqiqat işinin predmetini isə sözügedən tarixi romanların ideya-məzmun xüsusiyyətləri, ənənə və müasirlik kontekstində milli-mənəvi dəyərlərin işlənməsi, milli birlik, bərabərlik və ədalət kimi dövlətçilik və vətənpərvərlik ideyalarının ədəbi-estetik baxımdan təhlili əhatə edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işində qarşıya qoyulan əsas məqsəd Avropa təsirində inkişaf edən Türk ədəbiyyatında XIX əsrin II yarısında yaranan tarixi roman janrının təşəkkül və təkamül mərhələləri fonunda 1950-80-ci illərdə yazılan tarixi romanların mövzu, ideya və sənətkarlıq baxımından təhlil və tədqiqi ilə yanaşı, milli-mənəvi dəyərlər baxımından, eləcə də ənənə və müasirlik kontekstində müqayisəli təhlil etməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

---

Ü. Tənzimat dövrü türk nəsrinin formalaşmasına qərb ədəbiyyatının təsiri / – Bakı: Elm, – 2025. – 344 s.; Əliyeva, T. İskəndər Palanın tarixi romanları / T.Əliyeva. – Bakı: Elm və Təhsil, –2023. – 224 s; Abdullayeva, X. XIX əsr türk ədəbiyyatında roman janrının təşəkkülü və inkişafı: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, –2022. – 26 s.; Əliyeva, S. Çağdaş dövr Türkiyə nəsrində tarixilik və müasirlik (İsgəndər Palanın romanları əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, –2024. – 30 s.

– XIX əsrin II yarısından sonra ictimai-siyasi, ədəbi-mədəni mühit və ədəbi-tarixi təcrübə müstəvisində türk tarixi romanın təşəkkül tarixini tədqiq etmək;

– Türk ədəbiyyatının ilk tarixi romanı olan "Cəzmi" haqqında yaranan mübahisələri araşdırmaq;

– XX əsrdə tarixi roman janrının inkişaf istiqamətlərini müəyyənləşdirmək;

– 1950-80-ci illər tarixi romanların ədəbi-tarixi qaynaqlarını araşdırmaq və özünəməxsus xüsusiyyətlərini müəyyən etmək;

– Dövrün tarixi romanlarını mövzu və ideya-məzmun baxımından qruplaşdıraraq tədqiqata cəlb etmək;

– 1950-80-ci illər tarixi romanlarında milli-mənəvi dəyərləri ənənə və müasirlik kontekstində tədqiq etmək;

– Sözügedən dövrün tarixi romanlarında türk cəmiyyətində qadının yeri və rolu, vəzifəsi və qadın hüquqlarını müəyyənləşdirmək;

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji və nəzəri əsaslarını filologiya elmi sahəsindəki milli və ümumbəşəri dəyərlər, ədəbi-bədii materialın sistemli şəkildə araşdırılması təşkil edir. Tədqiqat zamanı müasir filoloji təfəkkürün elmi-nəzəri müddəaları əsas götürülmüş, dünya, Türkiyə, Avropa ədəbiyyatşünaslığı və Azərbaycan türkologiyamızın təcrübə və nəticələrindən, tarixi-müqayisəli və sistemli təhlil metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin müdafiəyə çıxarılan əsas müddəalarını aşağıdakı kimi ümumiləşdirə bilərik:

– Tarixi romanların yaranma mərhələsini şərtləndirən ölkənin ictimai-siyasi və mədəni həyatında baş verən ciddi təbəddülat və ictimai-fəlsəfi amilləri müəyyənləşdirmək;

– Mövzuya aid aparılan araşdırmalarda tarixi roman anlayışı, janrın adlandırlması haqqında mübahisəli və qeyri-obyektiv fikirləri, həmçinin doğru hesab etdiyimiz yanaşmaları təhlil etmək;

– Türk nəsrinin qərb üslubunda yazılmış ilk tarixi romanı Namiq Kamalın "Cəzmi" əsəridir;

– XIX əsrin 80-ci illərindən etibarən ilk nümunələri yaranan, əsrin sonlarında özünüifadə mərhələsini, ötən əsrin əvvəllərində

özünütəsdiq dövrünü yaşayan türk tarixi romanı XX əsrin əvvəllərində dinamik inkişaf mərhələsinə qədəm qoyur, 1960-cı illərdən sonra türk ədəbiyyatının dəyərli tarixi romanları yazılır;

– 1950-80-cı illər türk romanının tarixi inkişaf mərhələlərində ən mühüm dövrlərdən birini təşkil edir;

– Adı çəkilən dövrdə tarixi roman nümunələrinin mövzu dairəsi və obrazlar sistemini təhlil və şərh etmək;

– Göstərilən dövr romanlarında milli, mənəvi, əxlaqi, mədəni dəyərləri müqayisəli şəkildə təhlil etmək;

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada Azərbaycan türkologiyasında ilk dəfə olaraq müstəqil elmi araşdırma obyekti kimi seçilən 1950-1980-cı illər türk tarixi roman janrı sistemli, kompleks şəkildə tədqiqata cəlb olunmuşdur. Dissertasiya işində tarixlə tarixi roman arasında aparılan müqayisələr və gəlinən nəticələri tədqiqatın elmi yeniliklərindən saymaq olar. Tədqiqat işində 1950-1980-ci illərdə yazılan tarixi romanlar ilk dəfə olaraq milli-mənəvi və mədəni dəyərlər kontekstində geniş şəkildə araşdırılmış və təhlil edilmişdir. Təhlillərlə yanaşı tədqiqata cəlb edilən dövrün sözügedən kateqoriyaya uyğun olan tarixi romanlarının bədii-sənətkarlıq xüsusiyyətləri də tədqiq olunur. Həmçinin tənqidçilərin müxtəlif mövqeləri araşdırılaraq tarixi roman janrının xüsusiyyətlərinin və janrın tərifinin verilməsi işin yenilikləri arasındadır. Bunlardan əlavə tədqiqat işində aşağıdakı yeniliklər əldə edilmişdir:

– Dissertasiya Azərbaycan türkologiyasında ötən əsrin 50-80-ci illərinin türk tarixi romanları haqqında ilk müstəqil elmi-tədqiqat işidir;

– Azərbaycan türkologiyasında türk ədəbiyyatında 150 ildən artıq tarixi olan roman janrının təşəkkülü, inkişaf dövrləri, elmi-nəzəri aspektləri sistemli şəkildə tədqiqata cəlb edilmişdir;

– Dissertasiya işində indiyədək Azərbaycan türkologiyasında müstəqil elmi-tədqiqat obyektinə çevrilməmiş Talip Apaydın, İlhan Tarus, Tarıq Buğra, Samim Qocagöz, Mustafa Nəcati Səpətçioğlu, Əminə Işınsu kimi görkəmli türk yazıçılarının tarixi roman yaradıcılığının hərtərəfli təhlili verilmişdir;

–Dissertasiya işində tədqiqat işinin əhatə etdiyi 1950-80-ci illər tarixi zaman diliminin ən tanınmış türk yazıçılarından olan Kamal Tahir, Talip Apaydın, İlhan Tarus, Samim Qocagöz, Tarıq Buğra, Əminə Işınsu, Mustafa Nəcati Səpətçioğlu kimi ədiblərin yaradıcılığı, tarixi romanlarının sənətkarlıq xüsusiyyətləri, ideya-məzmun, ictimai-siyasi, mənəvi-əxlaqi və mədəni aspektləri müqayisəli şəkildə geniş tədqiqata cəlb edilmişdir;

– Dissertasiya işində türk ədəbiyyatında tarixi roman janrının inkişaf yolunun sistemli şəkildə araşdırılaraq janrın poetikasının ənənə və müasirlik kontekstində tədqiqi də mühüm elmi yeniliklərdən hesab edilə bilər;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi nəzəri baxımdan bütövlükdə türk ədəbiyyatında tarixi roman janrının yaranması və inkişafı, xüsusən də 1950-80-ci illər mərhələsinin araşdırılması baxımından əhəmiyyətlidir. Sözügedən dövrün tarixi romanları araşdırılan zaman ortaya çıxarılan yeni faktlar və orijinal maraqlı təhlillər tədqiqat işinin nəzəri əhəmiyyətini daha da artırır və qoyulmuş problemə yeni yanaşma tərzinə və elmi-nəzəri qənaətlərinə görə Türkiyə ədəbiyyatında tarixi roman janrı ilə əlaqədar problemlərin təhlil və həllində elmi mənbə rolunu oynaya bilər. Dissertasiyanın praktik əhəmiyyəti isə ondan ibarətdir ki, tədqiqat işinin başlıca müddəa və nəticələrindən türk xalqları ədəbiyyatı tarixinin, bütövlükdə Türkiyənin tanınmış sənətkarlarının həyat və yaradıcılığına dair monoqrafiya və kitabların hazırlanmasında, ali məktəblərin şərqşünaslıq və filologiya fakültələrinin proqram, dərslik və dərs vəsaitlərinin tərtibində, mühazirə mətnlərinin hazırlanmasında və seminar məşğələlərinin aparılmasında faydalanmaq mümkündür.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, həmçinin xarici ölkələrin nüfuzlu məcmuə və jurnallarında, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan (Copernicus, Ulakbilim və s.) dövrü elmi nəşrlərdə, ölkədaxili və xaricində keçirilən beynəlxalq konfrans və simpoziumlardakı

çıxışlarında və konfrans materiallarında dərc olunmuş məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Türk filologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və ümumi həcmi**. Dissertasiya işi giriş (14423 şərti işarə), üç fəsil (birinci fəsil iki paraqraf - 41078 şərti işarə, ikinci fəsil üç paraqraf – 67821 şərti işarə, üçüncü fəsil dörd paraqraf - 109377 şərti işarə), nəticə (6938 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 239640 şərti işarədir. Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yerinə yetirilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş**" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, quruluşu barədə məlumat verilir.

Dissertasiyanın I fəsli "**Türk ədəbiyyatında tarixi roman janrının genezisi və inkişafı"** adlanır. İki yarımfəsildən ibarət olan bu fəslin birinci yarımfəslinə "**Tarixi roman janrının yaranmasında tarix və ədəbiyyat əlaqəsi"** adı verilmişdir.

Bu yarımfəsildə tarixçi və yazıçının funksional fərqləri, tarixi əsər və tarixi romanın müqayisəli təhlili aparılır, həmçinin Azərbaycan, Avropa və türk ədibləri ilə tənqidçilərinin tədqiqatlarına əsaslanaraq tarixi roman janrının tərifi verilir və onun janr sərhədləri müəyyənləşdirilir. Fransız inqilabından sonra formalaşan yeni düşüncə tərzi cəmiyyətdə milli şüurun oyanmasına və millətçilik ideyalarının yayılmasına səbəb olmuşdur. Milli şüurun oyanması ilə millət olmaq fikri inkişaf etmiş, bu da milli dövlət anlayışının yaranması ilə nəticələnmişdir. Milli şüurun formalaşmasında əsas faktorlardan olan tarixin geniş xalq kütləsinə xitab etməsində

ədəbiyyatın xüsusi rolu olduğunu qeyd etməliyik. Saysız-hesabsız materiallardan ibarət olan tarix, ədəbiyyat üçün ilham qaynağına çevrilmişdir. Tarix ədəbiyyat üçün sonsuz material qaynağı olsa da, tarixçi ilə yazıçının vəzifəsini eyniləşdirə bilmərik. Tarixçi cəmiyyətin tarixini, yazıçı isə cəmiyyətdəki insanın tarixini yazır. Tarixçi tarixi reallığa sadiq qalaraq hadisələri tam obyektivliyi ilə qələmə almağa məcburdur. Yazıçı isə tarixi hadisələri mövzu obyekti kimi götürsə də, tarixi olduğu kimi yazmaya bilər. Yazıçı tarixdən aldığı hazır materialı öz fantaziyasına uyğun yoğuraraq ona yeni süjet əlavə edərək əsər ərsəyə gətirir. Buna baxmayaraq bədii əsərdə tarixi reallıq qorunub saxlanılmalı, tarixi həqiqətlər, dövrün ictimai-sosial vəziyyəti, xalqın etnoqrafiyası, adət-ənənəsi göstərilən dövrə uyğun təsvir edilməlidir. Tarixi romanda vacib olan məqam yazıçının uzaq keçmişdə baş vermiş hadisələri tarixi qaynaqlara müraciət edərək araşdırıb yenidən qələmə almasıdır.

Türk ədəbiyyatında tarixi romanın tədqiqi tarixi müxtəlifliyi ilə seçildiyinə görə tarixi romanlar haqqında müxtəlif mübahisələr mövcud olmuşdur. Buna görə də türk tədqiqatçı və araşdırmaçıları tarixi roman anlayışı, tarixi romanın adlandırılması, hansı əsərlərin tarixi roman hesab olunması haqqında bir-birindən fərqli müxtəlif fikirlər söyləmiş, mülahizələr irəli sürmüşlər. Hülya Arqunşah, Sadiq Tural, Nurullah Çətin kimi tədqiqatçılar tarixi romanda keçmişdə müəyyən dövrdə baş verib bitmiş, hadisələrin əks olunduğunu düşünmüşlər.[3]

Türk ədəbiyyatında tarixi roman anlayışı ətrafında yaranan fikir ayrılıqları janrın adlandırılmasında da davam edir. Türk ədəbiyyatında "tarixi roman", "tarix romanı", "tarixdən götürülmüş roman", "tarixlə bağlı roman", "dövr və çağ romanı" kimi fərqli terminlərin istifadəsi müşahidə olunur.

Təhlillər göstərir ki, tarixi roman dedikdə Valter Skottun şərtlərinə əsasən keçmişdə qalmış, ən azı 60-70 il əvvələ aid, ancaq

---

[3] Dadaşova A. Türk ədəbiyyatında tarixi roman janrının nəzəri aspektləri // - Bakı: Şərq Araşdırmaları, elmi nəzəri jurnal, – 2022. №1 (5), – s. 67-71, – s. 68.

tarixi mənbələrə müraciət edilərək öyrənilən, keçmiş zamandan bəhs edən roman, yəni klassik tarixi roman nəzərdə tutulur.[4]

Həmçinin tarixi romanların didaktik yönünə diqqət etdikdə xalqın keçmiş həyatı, qəhrəmanlıq mübarizəsi, görkəmli şəxsiyyətlərin həyatdan bəhs edən bu romanların gənc nəslin milli şüur, vətənpərvərlik və iftixar hisslərinin formalaşmasında mühüm rol oynadığını görürük.

I fəslin ikinci yarımfəsli "**Dünya və türk ədəbiyyatında tarixi roman janrının yaranması"** adlanır. Bu yarımfəsildə əvvəlcə qərb ədəbiyyatında, daha sonra isə türk ədəbiyyatında tarixi romanın təşəkkülünü hazırlayan ictimai, siyasi və sosial amillərdən, tarixi romanın mənbəyini təşkil edən ədəbiyyat nümunələri və türk ədəbiyyatının ilk tarixi romanlarından bəhs olunur.

XIX əsr Avropa tarixində mühüm dəyişikliklər dövrü kimi yadda qalmışdır. Fransız inqilabından sonra bir çox imperiyalar süqut etmiş və milli dövlətlər yaranmışdır. Bu dəyişikliklər nəticəsində milli şüur və mənliyin formalaşması nəticəsində xalqlar öz tarixlərinə üz tutmuşdur. Qərb ədəbiyyatında tarixi romanın yaranması məhz belə bir dövrə təsadüf edir. Amma XIX əsrə qədər tarixi mövzulu bir çox əsər yazılmışdır. Hətta romanla tarixin tanışlığı Antik Yunan dövrünə qədər uzanır. "İlliada", "Odissey", "Eneida" dastanları, "Decameron", "Min bir gecə" kimi nümunələr tarixi roman janrının müjdəçisi olmuşdur. Tarixi mövzuda yazılmış əsərlərə XVII və XVIII əsrlərdə də rast gəlmək mümkündür. İngilis yazıçı, Valter Skottun "Ueverli" (1814) romanı ilə dünya ədəbiyyatında tarixi roman janrının əsası qoyulmuşdur.

Avropada tarixi roman janrının XIX əsrin əvvəllərində, türk ədəbiyyatında isə əsrin sonunda meydana çıxması ədəbi inkişaf qanunauyğunluqları ilə sıx bağlıdır və bu fərq təsadüfi xarakter daşımır. Artıq XIX əsrdə Osmanlı dövləti get-gedə zəifləyib əvvəlki gücünü və iqtisadi qüdrətini itirib, tənəzzülün eşiyində idi.

---

[4] Dadaşova A. Türk edebiyatının Milli Mücadele konulu tarihi romanları // Zaferin 100. Yıl dönümünde Milli Mücadeleye yeni bakışlar, – Ankara: Sonçağ – 8-10 iyun, – 2022, – s.775-786, – 780.

İmperiyanın süqutunun qarşısını almaq üçün bir sıra islahatlar həyata keçirilmişdir. Osmanlı dövlətinin Qərb dövlətləri tərəfindən parçalanıb bölüşdürülmə təhlükəsi dövrün ziyalı və yazıçılarını da narahat edirdi. Ziyalılar xalqda mübarizə əzmini yüksəltmək, gələcəyə inam yaratmaq məqsədi ilə tarixi mövzulara üz tuturdular. Keçmişdəki zəfər günlərini, qəhrəmanların igidliklərini tarixi romanlar vasitəsilə yada salaraq, xalqı mübarizəyə səsləyirdilər.

Türk ədəbiyyatında Tənzimat dövrünə (1839) qədər tarixi romanı qədim insanların tarix şüurunu formalaşdıran dastanlar, xalq hekayələri, əfsanələr əvəz etmişdir. Təhlillər göstərir ki, türk ədəbiyyatında da tarixi romanların mənbəyini şifahi xalq ədəbiyyatı nümunələrindən olan dastanlar, xalq hekayələri, qəzavatnamə, battalnamə, cənknamələr təşkil edir. Tənzimat dövründə tarixi dövr və hadisələrə müraciət edənlər arasında Əhməd Midhət və Namiq Kamal xüsusi ilə seçilirdi. Əhməd Midhətin "Yeniçərilər" (1872) və Namıq Kamalın "Cəzmi" (1880) romanları tarixi roman janrında türk ədəbiyyatının təşəkkül mərhələsinə aid edilən və bu janrın əsasını qoyan ilk nümunələrdəndir. Əhməd Midhətin "Yeniçərilər" romanı yeni yaranan tarixi roman janrının xüsusiyyətlərini tam ehtiva etmədiyi üçün əsəri tarixi romana ilk cəhd olaraq qiymətləndirmək olar. Əslində Əhməd Midhət əsərdə bəhs edəcəyi hadisəyə tarixdən uyğun dövr seçmiş və burada tarixi yalnız hadisələrin fonunda təsvir etmişdir. "Yeniçərilər" romanı daha çox tarixi macəra romanı olaraq qəbul edilə bilər.

Osmanlı–İran müharibələrindən bəhs edən, türk-İslam birliyinin təbliği baxımından nümunə olan "Cəzmi" romanı isə türk ədəbiyyatının qərb üslubunda yazılmış, tarixi romanın şərtlərinə cavab verən ilk tarixi romanıdır.

Birinci fəsildə irəli sürülən əsas müddəalar elmi məqalə və tezislərdə öz əksini tapmışdır.[5;6;7;8;9;10;11;12]

Dissertasiyanın "**XX əsrin II yarısında türk ədəbiyyatında tarixi roman janrı (1950-80-ci illər)**" adlanan II fəsli üç yarımfəsildən ibarətdir. Bu fəslin "**XX əsrdə tarixi roman janrının inkişaf mərhələləri**" adlanan ilk yarımfəslində Tənzimat dövründən sonra türk tarixi roman janrının keçdiyi inkişaf mərhələləri ardıcıllıqla sistemli şəkildə təhlil edilmişdir.

Tənzimat dövründə(1860-1896) yazılan tarixi romanlardan sonra Cümhuriyyətə qədərki dövrdə tarixi roman janrında durğunluq müşahidə olunur. Tənzimat dövründən fərqli olaraq Sərvət-i Fünun dövründə türk tarixinə olan maraq azalmışdır. Qərbin təsiri ilə yeni üslub, ədəbi janr və estetik qayə axtarışında olan yazıçılar demək olar ki, Sərvət-i Fünun dövründə tarixi roman yazmamışdılar. Bunun əksinə olaraq milli dil və ədəbiyyat yaratmağa çalışan Milli ədəbiyyat

---

[5] Dadaşova, A. Ahmet Mithat Efendi yaradıcılığında tarixi roman janrı // – Türk dillərinin və ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri beynəlxalq elmi konfrans, – Sumqayıt: SDU №4, – 20-21 may, – 2021, – s. 328-332.

[6] Dadaşova, A. Türk ədəbiyyatında tarixi roman janrının nəzəri aspektləri // – Bakı: Şərq Araşdırmaları, elmi nəzəri jurnal, – 2022. №1 (5), – s. 67-71.

[7] Dadaşova, A. Walter Scott`tan Günümüze Tarihi Romanın Gelişimi // VI Uluslararası Türklerin Dünyası Sosyal Bilimler Sempozyumu, – Ankara: Türklerin Dünyası Enstitütüsü, – 13-15 may, – 2022, – s. 927-941.

[8] Dadaşova, A. Tarihi Romanın Doğuşu ve Namık Kemal // I Uluslararsı Türkoloji Kongre "Arayışlar ve Yönelimler", – Karabük: Karabük Üniversitesi, – 16-18 may, – 2022, – s. 166-174.

[9] Dadaşova, A. Tarixi roman janrı və Valter Skott // – Bakı: AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Əlyazmalar Yanmır Elmi məqalələr toplusu, – 2023. c. 9, №1 (16), – s. 93- 98.

[10] Dadaşova, A. Türk tarixi romanın təşəkkül və inkişaf tarixi // – Bakı: Filologiya məsələləri AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2023. №8 – s. 396-402.

[11] Dadaşova, A. Populyar türk tarixi romanların nəzəri aspektləri // BMU Gənc Tədqiqatçıların VII Beynəlxalq Elmi Konfransı, – Bakı: BMU, – 28-29 aprel, – 2023 – s.1854-1858.

[12] Dadaşova, A. Türk ədəbiyyatının ilk tarixi romanı "Yeniçerilər" yoxsa "Cezmi" // "Tədris, Öyrənmək və Təhsil" mövzusunda Respublika Elmi praktik konfrans, – Bakı: Qərbi Kaspi Universiteti, – 5may, –2023. – s. 180-182.

dövrü yazıçıları isə tarixə böyük maraq göstərmişlər. Bu dövrdə tarixi romandan çox A.H. Müftüoğlu və Ö.Seyfəddinin tarixi mövzulu hekayələri böyük maraqla qarşılanmışdır. Cümhuriyyətin qurulması ilə nəticələnən Milli Mübarizə dövründən sonra türk ədəbiyyatında ümumilikdə roman yazılmasında əhəmiyyətli dərəcədə artım müşahidə olunurdu. Roman sayında nəzərə çarpan bu artımın səbələri var idi. Bu artımın əsas amillərindən biri roman janrının geniş oxucu auditoriyasına xitab etməsi, digəri isə onun fikir və məzmunu daha əhatəli şəkildə təqdim etməyə imkan verməsi idi.

Cümhuriyyət dövründə Abdulla Kozanoğlu, Nizaməddin Nazif, Fazıl Nəcib, Turxan Tan, Firidun Fazıl Tülbəntçi, Rəşad Əkrəm Qoçu və s. yazıçıların sadə dil və üslubla yazdıqları, cəlbedici və maraqlı hekayələrdən ibarət olan romanları böyük maraqla oxunurdu. Ədəbi estetik qayədən uzaq olan bu tarixi romanlar oxucular tərəfindən böyük maraqla qarşılansalar da zəif nümunələr olduğundan qısa zaman sonra unudulurdu. Ədəbi estetik cəhətən zəif hesab edilən bu romanlar, ənənəvi və müasir quruluş arasında keçid mərhələsində olan cəmiyyətin xüsusiyyətlərini əks etdirən ənənə ilə müasirlik arasında formalaşan ara mədəniyyətin məhsulu kimi meydana çıxmışdır.

Cümhuriyyətin yaranması ilə başlayan 1923-50-ci illər türk ədəbiyyatı tarixində ən çox tarixi roman yazılan dövr olaraq qiymətləndirilir. Təkcə Abdullah Ziya Kozanoğlunun 1923-cü ildən sonra 21 tarixi roman qələmə aldığı məlumdur.

Türk ədəbiyyatında 1940-1960-cı ilə qədər yazılan tarixi romanlar məzmunca maraqlı, macəra xarakterli mövzuları əhatə etdiyi və sadə quruluşa malik olduğuna görə oxucuların diqqətini cəlb etmişdir. Osmanlı dövrü türk tarixi və İslam tarixindən bəhs edən, türk tarixinin ən parlaq dövrlərini əks etdirən bu romanlar "tarixi roman tarix deyil" prinsipindən çıxış edərək yazılan, yazıçı təxəyyülünə əsaslanan, tarixi macəra tərzində yazılmış romanlardır.

1960-cı ildən sonra yazılan tarixi romanlarda yazıçıların həm roman yazma texnikasında, həm də tarixi reallıqlara olan yanaşmasında dəyişikliklər müşahidə olunurdu. Bəzi yazıçılar ölkənin bu tarixi müddətdə keçirdiyi dəyişiklikləri ictimai, sosial və iqtisadi yöndən ələ almış, bəziləri isə özünəxas üslubları ilə dövrün

dəyişikliklərini sosial realist üslubla qələmə almaqla yeni yanaşmaların tətbiqinə çalışmışlar. Yazıçılar artıq tarixi roman yazarkən əvvəlki klassik ifadə tərzinin istifadə olunduğu, çox yazılan və çox oxunan tarixi macəra üslublu roman anlayışını dəyişmək istəyirdilər. XX əsrin 60-cı illərindən sonra türk ədəbiyyatı əvvəlki dövrlərə nisbətən fərqli dünyagörüşünə malik yazıçılarla öz yoluna davam etmişdir.

Türk ədəbiyyatında 1960-cı illərdən sonra modernist üslubda romanlar yazılmağa başlayır. Bu dövrdə yazılan romanlarda maariflənmə ilə yanaşı insanı tanıma, onun daxili aləminə nüfuz etmə kimi amillər ön plana keçir. "Dövlət Ana" tək yeni tərzdə yazılmış romanlar tarixi romanın yönünü yavaş-yavaş dəyişdirirdi. Bədii estetik dillə qələmə alınmış, modern üslubda yazılmış bu tip romanlarda məzmun dərinliyi yazıçıların əsas hədəflərindən biri idi. Kamal Tahir "Dövlət Ana" romanı ilə Milli ədəbiyyat və Cümhuriyyət dövründə yazılmış romanlarda olduğu kimi yalnız tarixi qaynaqlara əsaslanaraq yazılan əsərlər yerinə, müəllifin tarixi mövzuda prespektiv və şərhlərini əks etdirən əsərlər yazmağa başlayır. 1960-cı illərdən sonra Kamal Tahir, Tarıq Buğra, Əminə Işınsu, Mustafa Nəcati Səpətçioğlu, Talip Apaydın kimi yazıçıların əsərləri böyük maraqla oxunmuşdur.

1980-ci ildən sonra dünya ədəbiyyatında olduğu kimi türk ədəbiyyatında da tarixi roman yeni mərhələyə qədəm qoyur. Ənənəvi tarixi romandan fərqli olaraq yeni yaranmış roman yazıçıya öz fikir və fantaziyalarını daha çox istifadə etmək imkanı verirdi. 1980-ci illərə qədər türk ədəbiyyatında yazıçıların populyar və modern üslubda tarix romanlar yazdığının şahidi oluruq. 1980-ci illərdən sonra artıq dünya ədəbiyyatında olduğu kimi, türk ədəbiyyatında da tarixi romanların sıralarına postmodern romanlar daxil olmağa başladı.

Bu fəslin "**1950-80-ci illərdə türk ədəbi mühiti**" sərlövhəli ikinci yarımfəslində 1950-80-ci illərdə ölkə həyatında yaşanan qarışıq və mürəkkəb siyasi proseslərin sosial, ədəbi mühitə olan təsirindən, tədqiqata cəlb etdiyimiz dövrün fərdi sənətkarlıq xüsusiyyətinə malik Talip Apaydın, İlhan Tarus, Kamal Tahir, Tarıq

Buğra, Samim Qocagöz, Mustafa Nəcati Səpətçioğlu, Əminə Işınsu kimi ədiblərin yaradıcılıqlarından bəhs olunur.

XX əsrin 50-80-ci illərində inqilablar, memorandumlar, siyasi dalğalanmalara şahid olan ölkə həyatındakı dəyişikliklər dövrün ədəbiyyatına da təsir etmişdir.

1950-ci illər türk ədəbiyyatı yenilikləri ilə yadda qalmışdır. 1950-80-ci illər türk ədəbi mühiti yazıçılar baxımından məhsuldar dövr olmuşdur. Bu dövr türk ədəbiyyatında hekayə, şeir, roman janrında bənzərsiz yazıçı nəsli yetişmişdir. 1950-ci illərdən sonra türk ədəbiyyatında Kamal Tahir, Əhməd Cəmil Axıncı,Samim Qocagöz, Tarıq Buğra, Fikrət Arıt, Oğuz Özdəş, Rəşat İləri, Bəkir Büyükarkın, Talip Apaydın, Bahaəddin Özkişi, Mustafa Nəcati Səpətçioğlu, Əminə Işınsu, Sevinç Çokum, Yavuz Bahadıroğlu, kimi yeni yazıçı nəsli parlamağa başlamışdır. Dövrün ədibləri həm əvvəllər işlənməyən mövzuları ədəbiyyata gətirmək, həm də insan ruhuna dərindən təsir etməklə ədəbiyyatda yeni qapılar açmışlar.

Cümhuriyyətin ilk illərində geniş yayılmış ədəbi dəyəri zəif olan macəra xarakterli romanların yazılması bu dövrdə də davam etmişdir. Həyat və cəmiyyətin reallıqlarından uzaq və ya sevgi, intriqalardan bəhs edən bu roman müəllifləri yenə də bənzər mövzular üzərində işləməyə davam etmişlər.

1950-80-ci illərdə türk ədəbiyyatında yazılan əsərlər arasında kənd həyatından bəhs edən sosial realist üslublu romanlar, məhv olmuş dəyərlərə olan həsrətdən bəhs edən milli, dini həssaslığı işıqlandıran romanlar, modernizmin təsiri ilə yazılan romanlar və qəhrəmanın daxili aləmini əks etdirən romanlar diqqət çəkir.

Təhlillər 1950-80-ci illər yazıçılarından Talip Apaydın, İlhan Tarus, Samim Qocagöz, Kamal Tahir, Tarıq Buğra, Əminə Işınsu, Mustafa Nəcati Səpətçioğlu kimi yazıçıların əsərlərində tarixə ideoloji yanaşma olduğunu göstərir. Bu yazıçılar romanlarında təsvir olunan fakt və hadisələrin yaranma səbəblərini təhlil və tədqiq edərək əsərin mərkəzinə ilk növbədə vətənin, millətin taleyini, insanı qoymuş, bütün varlığı ilə onların yanında dayanmışlar.

İkinci fəslin "**1950-80-ci illər tarixi romanların mövzu, ideya-məzmun və sənətkarlıq xüsusiyyətləri**" adlı üçüncü yarımfəslində türk ədəbiyyatında 1950-80-ci illərdə qələmə alınmış

tədqiqata cəlb etdiyimiz tarixi romanların uzaq keçmişdən və yaxın keçmişdən bəhs edən romanlar olaraq qruplaşdırıldığı göstərilmişdir. Bu qruplaşma daxilində uzaq keçmişdən bəhs edən romanlar arasında Səlcuq və Osmanlı dövlətinin yaranma tarixini ehtiva edən əsərlər yer alır. Bu yarımfəsildə 1950-80 illərdə yazılan tarixi romanlardan Kamal Tahirin "Dövlət Ana", Tarıq Buğranın "Osmancıq", Səpətçioğlunun "Kilid", "Açar" (Anahtar), "Qapı", "Malikanə" Konak (), "Dam" (Çatı), "Bu atlı keçidə gedir" ("Bu atlı geçide gider") Əminə İşınsunun "Ağ topraqlar" və s. romanları tədqiqata cəlb edilmişdir. Bu tarixi romanların bir qismində türklərin Anadoluya gəlişi və Anadolunun türkləşməsi uğrunda gedən mübarizə, xüsusilə də onların tarixində əhəmiyyətli yeri olan Malazgird müharibəsi (1071) əks olunmuşdur. Bundan sonra türklər köçəri mədəniyyətdən Aralıq dənizi ətrafında oturaq mədəniyyətə keçid edir, öz tarixi ata-baba torpaqlarına qayıdırlar. Digər qism romanlarda isə 6 əsrdən artıq tarixi olan Osmanlı dövlətinin quruluş tarixindən bəhs olunur.

Yaxın keçmişdən bəhs edən romanların mövzusunu isə Türk tarixinin qan yaddaşı olan Milli Mübarizə dövrü hadisələri təşkil edir. Bu yarımfəsildə Kamal Tahirin "Əsir şəhərin insanları", "Əsir şəhərin məhbusu", "Yol ayrımı", İlhan Tarusun "Var olmaq", "Hökümət meydanı", "Vətən eşqi"; Samim Qocagözün "Qalpaqlılar", "Doludizgin"; Talip Apaydının "Toz duman içində", "Vətən dedilər"; Tarıq Buğranın "Kiçik ağa", "Firon imanı" kimi romanlar tədqiqata cəlb olunmuşdur. Həmçinin bu yarımfəsildə tədqiq olunan romanların qısa məzmunu, dil və üslub xüsusiyyətlərindən də bəhs olunur.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticələri aşağıdakı məqalələrdə öz əksini tapmışdır. [13;14;15;16]

Dissertasiya işinin "**1950-80-ci illərdə yazılan tarixi romanlarda milli-mənəvi dəyərlərin ənənə və müasirlik kontekstində təhlili**" adlı üçüncü fəsli dörd yarımfəsildən ibarətdir. Üçüncü fəslin ilk yarımfəsli "**Dövlətçilik ideyaları: Milli birlik, bərabərlik və ədalət mövzusu**" adlanır.

Əsrlər boyu yaranmış və dəyərli ədəbi mirasa çevrilmiş türk şifahi xalq ədəbiyyatı XX əsrdə bu və ya digər dərəcədə ənənə rolunu oynamış, ədəbiyyata xüsusilə də tarixi romanlara təsirsiz ötüşməmişdir. Bugünkü mədəniyyətin və ədəbiyyatın təməlində ənənə dayanmışdır. Təhlillər göstərir ki, tarixi romanlarda yazıçılar daha çox milli dəyərlərin daşıyıcısı olan dastanlardan bəhrələnmişlər.

Bu yarımfəsildə qədim türklərin dövlətçilik ənənələri, birlik və bərabərlik ideyaları tarixi romanlardan gətirilən nümunələrlə müqayisəli şəkildə təhlil edilmişdir. Tədqiqat zamanı türklərdə dövlətin yaranmasına təsir edən amillər araşdırılaraq aşkar edilmişdir. Tədqiqatlar göstərir ki, uzaq keçmişdən bəhs edən tarixi romanlarda dövlətin yaranmasında ən vacib ünsürlərdən biri din və din adamları (dərvişlər) olmuşdur. Səlcuq və Osmanlı dövlətinin quruluş tarixindən bəhs edən romanlarda Anadoluda türk dövlətinin yaranmasında, birlik və bərabərliyin, sosial ədalətin təmin edilməsində, İslamın yayılmasında ocaqların, dərgahların və onları idarə edən dərvişlərin qurucu birləşdirici rolu böyük olmuşdur. Türklərdə ocaq ata babaların ruhunun toplandığı, odun yandığı,

---

[13] Dadaşova, A. Tarık Buğranın "Küçük Ağa" romanında qəhrəmanların mənəvi təkamülü // – Bakı: Şərq Araşdırmaları, Elmi nəzəri jurnal – 2020. № 2, – s. 51-57.

[14] Dadaşova, A. Türk edebiyatının Milli Mücadele konulu tarihi romanları // Zaferin 100. Yıl dönümünde Milli Mücadeleye yeni bakışlar, – Ankara: Sonçağ, – 8-10 iyun, – 2022, – s.775-786.

[15] Dadaşova, A. Türk ədəbiyyatında populyar tarixi roman janrı // – Bakı: Türk filologiyası Azərbaycan Respublika Elm və Təhsil Nazirliyi Bakı Dövlət Universiteti, – 2023. №1, – s. 101-107.

[16] Dadaşova, A. Türk tarixi romanlarında Malazgird // Gənc Tədqiqatçıların VI Respublika elmi konfransı – Bakı: , – 10 mart, – 2023, – s. 44-46.

nəslinin davam etdiyi yer olduğundan ocağın yanması həyat göstəricisi, sönməsi isə soyun tükənməsi olaraq qəbul edilmişdir. Yəsi ocağının dərvişləri Orta Asiyadakı dərgahlarından aldıqları bu odu söndürmədən öz tarixi ata baba torpaqları olan Anadoluya gətirib, burada yenidən çoxaltmağa nail olmuşlar.

Tədqiqata cəlb edilən romanlarda Şeyx Ədəbalının, Qumral Dədənin , Sarı Hocanın ocaqları türkləri öz ətrafında birləşdirmişdir. Saçlı Hoca, Sarı Hoca, Küpəli Hafız, Kumral Dədə, Şeyx Ədəbalı, Tapdıq Əmrə, Yunus Əmrə, Abdal Musa, Qayğısuz Abdal, Qaraca Əhməd tarixi romanların dərviş obrazlarıdır. Bu dərvişlər, fiziki-siyasi fəthlərdən əvvəl əldə ediləcək ərazilərdə mənəvi və ideoloji təsir göstərərək, həmin torpaqların qazanılması üçün əlverişli sosial və dini zəmin yaratmışlar. Dərvişlər sevginin, mərhəmətin gücüylə insanların qəlbinə yol açaraq onları yönləndirməyi bacarmışlar. Bu əsərlərdə dövlətin yaranması üçün yalnız gücün, qüvvətin deyil, ağılın, elmin də vacibliyi vurğulanmaqdaydı. Bu yolla türklər qəbilədən bəyliyə, bəylikdən isə dövlətə doğru inkişaf yolu keçmişdir.

Uzaq keçmişdən bəhs edən tarixi romanlarda Kamal Tahir, Tarıq Buğra, Mustafa Nəcati Səpətçioğlu kimi yazıçılar ənənədən geniş şəkildə bəhrələnmişlər. Ənənə onların yaradıcılığında bir baza rolunu oynamış, dastanlara müraciət etməklə özlərinə məxsus üslub formalaşdırmışlar. Bu yazıçılar köhnə məzmunu yeni forma qəliblərə salmışlar. “Kilid” (M.N.Səpətçioğlu) romanında dövlətin quruluş fəlsəfəsində dastanların xüsusi rola malik olduğu əsərdə “Oğuz Kağan”, “Köç” dastanından gətirilən nümunələrlə göstərilir. Yazıçı, əsərdə İslamdan əvvəlki inanc və simvolları İslam dəyərlərilə birgə istifadə etməklə dövlətin yaranmasına diqqət çəkir. “Osmancıq” (T.Buğra), “Malikanə” Konak (M.N.Səpətçioğlu) və “Dövlət Ana” (K.Tahir) romanlarında dövlətin yaranması kiçik toxumdan böyüyən çinar ağacı simvoluna bənzədilmişdir.

Sonuncu fəslin **“Milliyətçilik və vətənpərvərlik ideyaları”** adlanan ikinci yarımfəslində tarixi romanlarda türklərin Milli Mübarizə illərində qərb işğalçılarına qarşı dərinləşən milliyətçilik duyğuları, vətən sevgisi tarixi romanlardan göstərilən nümunələrlə əks olunmuşdur.

Osmanlı dövlətinin I Dünya müharibəsində məğlub olmasından sonra yunanlar serblər və başqa Balkan xalqları müstəqillik qazanıb Osmanlı dövlətindən ayrılır. Bundan sonra Osmanlı təbəəsi olaraq qalan yunanların türklərə olan düşmənçiliyi daha da artır və türklərin xristianlarla birgə yaşaması çətinləşir. Məhz bundan sonra Osmanlı türkləri arasında milliyətçilik fikri dərinləşməyə başlayır. Dini tolerant dövlət olan Osmanlı dövlətinin sərhədləri daxilində yaşayan, xüsusi imtiyazlara sahib olan yunanların türklərə qarşı törətdikləri qırğınlar, soyğunlar yaxın keçmişdən bəhs edən tarixi romanların mövzu obyektinə çevrilmişdir.

"Qalpaqlılar", "Doludizgin" (S.Qocagöz), "Kiçik ağa" (T.Buğra) romanlarında bir-birinə düşmən türk və yunan məhəlləsində yaşanan hadisələr milliyətçiliyin izlərini aydın şəkildə əks etdirir. Çolaq Saleh (Kiçik ağa), Yusif (Qalpaqlılar), Saleh Efe (Qalpaqlılar) kimi qəhrəmanlar müharibələrdə cəbhədən-cəbhəyə vuruşub, döyüşdən əl qolunu, sağlamlığını itirmiş, üz- gözü tanınmaz halda qayıtmışlar. Bu müddətdə isə xüsusi imtiyazlara sahib yunanlar, ermənilər rahat şəkildə öz həyatlarını yaşamışlar. Amma dəyişən siyasi hadisələr onların da mövqe dəyişməsinə, illərlə bir yerdə yaşadıqları türklərə qarşı düşmən kəsilmələrinə səbəb olur. Tədqiqatımızda yaşanan bu hadisələr romanlardan gətirilən konkret nümunələrlə təhlil edilmişdir.

Dissertasiyanın "**1950-80-ci illərdə yazılan tarixi romanlarda milli-mənəvi dəyərlərin ənənə və müasirlik kontekstində təhlili"** adlı üçüncü fəslinin "**Din məsələsi, adət-ənənə və inanclar"** adlı üçüncü yarımfəslində tədqiq etdiyimiz dövrün tarixi romanlarında din və dinə baxış müxtəlif aspektlərdə əks olunmuşdur.

Türk milləti İslam dinini qəbul etdikdən sonra min ildən çoxdur ki, bu ənənələr ilə həyatlarını davam etdirmişlər. Türklərin İslam dininin qəbulundan sonra din, dövlətin yaranmasında əsas vacib ünsür olmuşdur. Bəyliklər dövründən başlayaraq Tənzimat fərmanına qədər türk cəmiyyətində din birləşdirici rol oynamışdır. Səlcuq və Osmanlı dövlətlərinin yaranmasında din və din adamları vacib faktor olaraq göstərilmişdir. Təhlillər uzaq keçmişdən (Səlcuq

və Osmanlı dövlətlərinin yaranma tarixindən) bəhs edən tarixi romanlarda dinin ucaldıldığını, dövlətin yaranmasında, birlik və bərabərliyin, ədalətin təmin olunmasında dinin rolunun böyük olduğunu göstərir.

Bu yarımfəsildə həmçinin dinin mənəvi aspektlərini təşkil edən dua, namaz, azan "Bismillah" ifadəsi və Qurani-Kərimə göstərilən dərin hörmət məsələləri təhlil olunur. Dissertasiyada bu kimi mənəvi dəyərlərə verilən önəm romanlardan verilən nümunələrlə təqdim olunmuşdur. Uzaq keçmişdən bəhs edən romanlarda Sarı Hoca, Küpəli Hafız, Kumral Dədə, Şeyx Edəbali, Yunus Əmrə, Qayğısız Abdal kimi din adamı obrazında təqdim olunan bu dərvişlər türklər arasında birlik və bərabərliyi, sosial ədaləti təmin etmiş, dövlət və millətin yaranmasında vacib rol oynamışlar.

Lakin Tənzimatla başlayan modernləşmə mərhələsində cəmiyyətdə din və din adamının mövqeyi zəifləmişdir. II Mahmudla başlayan qərbləşmə dövründə dövlətin idarə və icrasında din passivləşərək ikinci plana keçmişdir. Xüsusilə Milli Mübarizə illərində dövrün şərtlərinə görə dinə olan mənfi münasibət artmışdır. Yaxın keçmişdən bəhs edən "Əsir şəhərin insanları", "Qalpaqlılar", "Toz duman içində", "Vətən dedilər" və s. romanlarda dinin fanatizmin, xurafatın tənqid atəşinə tutulduğunu görürük. Dövr romanlarından yalnız Tarıq Buğranın romanlarında din adamına fərqli yanaşma görülür. "Kiçik ağa"da din adamı fərqli ampulada təqdim olunur. İstanbul hökuməti tərəfdarı olaraq Ağşəhərə göndərilən İstanbullu Hoca yaşanan hadisələrin əsl üzünü öyrənəndən sonra Milli mübarizə dəstələrinə qoşulmağı seçən obraz olaraq təqdim olunmuşdur.

Bu yarımfəsildə həmçinin tarixi romanlarda qarşılaşdığımız qədim türk adət-ənənələri, inanclarından da bəhs olunmuşdur.

Dissertasiyanın **"Türk tarixi romanlarında qadının cəmiyyətdə yeri"** adlanan son yarımfəslində türk tarixində qadın, qadının cəmiyyətdə yeri və rolu geniş şəkildə tədqiq edilmişdir.

Tarixə nəzər saldıqda görünür ki, İslamdan əvvəlki dövrdə köçəri həyat keçirən türklərdə qadın kişilərlə bərabər hüquqlara sahib olmuş, kişilərlə birgə at minib, ox atmış, qılınc oynadıb döyüşlərdə

iştirak etmişdir. İslam dinini və mədəniyyətini qəbul edən türk cəmiyyətində yavaş-yavaş qadınların sosial həyatdakı rolu passivləşmişdir. Mədəniyyət dəyişikliyi ilə türk qadınının cəmiyyətdə bir çox haqq və statuslarının itirilməsi Osmanlının son dövrlərinə təsadüf etmişdir.

Tənzimat dövründən sonra qadının cəmiyyətdə yeri və rolu dəyişməyə başlamış İstanbula gələn xarici qadınlar türk qadını üçün bir modelə çevrilmişdir. Tənzimat dövründə qadının cəmiyyətdə rolunun dəyişməsinə Əhməd Midhət, Namiq Kamal kimi yazıçı və ziyalıların təsiri böyük olmuşdur.

Milli Mübarizə dövründən bəhs edən tarixi romanlarda türk qadını yenə də özünə xas igidliyini, döyüşkənliyini itirməmiş, Milli Mübarizə hərəkatında kişilərlə çiyin-çiyinə vuruşmuşdur. Tarixi roman yazıçıları türk qadınını romanlarında belə təsvir etməklə, qadınların özlərinə layiq hörmətini, qəhrəmanlıqlarını oxuculara bir daha göstərmişlər.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticələri aşağıdakı məqalələrdə öz əksini tapmışdır. [17;18;19;20;21;22;23]

---

[17] Dadaşova, A. Türk tarixi romanlarında dərviş obrazı // BMU Gənc Tədqiqatçıların VIII Beynəlxalq Elmi Konfransı – Bakı: BMU, – 26-27 aprel, – 2024, – s. 1981-1986.

[18] Dadaşova, A. Milli Mücadilənin Tarık Buğranın tarixi romanlarında bədii əksi // Uluslararası "Türk Dünyasında Milli Mücadele ve Edebiyat", – Bakı: TDK Yayınları, − 12-15 iyun, − 2019, − s. 121-129.

[19] Dadaşova, A. Türk tarixi romanlarında dövlət quruluşu // İsmayıl Şıxlı yaradıcılığına həsr olunmuş "Filologiyanın aktual problemləri" beynəlxalq konfrans, − Bakı: BAU, − 3-4 dekabr, 2019, – s. 222-226.

[20] Dadaşova, A. Women's portraits in Turkish historical novels // – Україна: Актуальні Питання Гуманітарних Наук, – 2023. № 64, том 1, – s. 240-246.

[21] .; Dadaşova, A. Türk tarixi romanlarında qadın obrazları // – Bakı: Şərq Araşdırmaları Elmi nəzəri jurnal, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, – 2023. Vol 5 №1 – s. 69-74.

[22] Dadaşova, A. Tarixi romanlarda vətənpərvərlik duyğuları // Türk dünyasının mədəniyyət paytaxtı Şuşa", Respublika elmi konfransı, – Şamaxı: ADPU, – 14 dekabr, – 2023, – s. 420-424.

[23] Dadaşova, A. Religion in Turkish historical novels // Türkiye – Akademik Tarih ve Düşünce, – 2024. cild 11, № 2, – s. 906-916.

Dissertasiya işinin **“Nəticə”** hissəsində tədqiqat boyu əldə edilmiş elmi nəzəri qənaətlər ümumiləşdirilmişdir.

- Tarixlə ədəbiyyat arasında daima sıx əlaqə olmuş, tarixi hadisələr və şəxsiyyətlər sənətkarlar üçün ilham qaynağı, saysız-hesabsız material mənbəyi rolunu oynamış, milli dəyərlərin daşıyıcısı olan tarixi romanlarda millətlərin tarixi, ictimai-siyasi həyatı, məişəti, adət-ənənələri əks olunmuşdur.
- Tarixi romanlar roman janrının mübahisəli növlərindən olmaqla diqqət çəkmişdir. Bu səbəbdən türk ədəbiyyatında tarixi roman anlayışı, janrın adlandırılmasında, hansı əsərlərin tarixi roman hesab olunması kimi bir sıra mübahisəli məsələrlə bağlı fikir ayrılıqları mövcuddur. Janrın müəyyənedici amilləri araşdırıldıqdan sonra belə bir qənaətə gəlmək mümkündür ki, tarixi roman uzaq keçmişdə baş verib bitmiş, tarixdə tamamlanaraq zaman möhürünü almış hadisələrdən bəhs edir. Tarixi roman janrının tarixiliyini sübut edən ən vacib şərt zaman məsələsi olduğu üçün tarixi hadisə ilə yazıçının o hadisələrdən bəhs edən əsərini yazdığı dövr arasında uzun bir zaman məsafəsi olmalıdır.
- Yazıçının yaşadığı və şahidi olduğu yaxın bir dövr hadisələrinin məhsulu olan romanlar tarixi deyil, “dövr və ya çağ” romanı olaraq adlandırılmalıdır.
- Milli dövlət quruculuğuna, birlik və bərabərliyə ehtiyac duyulan zamanların məhsulu olan tarixi romanlar, didaktik yöndən oxucuya tarix şüuru aşılamaq, keçmişin səhvlərini təkrarlamadan gələcəklə bağlı doğru qərarlar vermək, keçmiş təcrübələr işığında bəşəriyyətin gələcək inkişaf perspektivlərini müəyyən etmək imkanı verir.
- Şifahi xalq ədəbiyyatı nümunələrindən olan, sadə xalq dilində yazılan tarixi qəhrəmanlıq dastanları, qəzavatnamə, battalnamə, cəngnamə kimi əsərlər tarixi romanların klassik formasıdır.
- XIX əsrin II yarısında Tənzimat dövrü türk ədəbiyyatında yeni yaranmağa başlayan roman janrının yaradıcıları arasında Əhməd Midhət Əfəndi və Namiq Kamalın xüsusi yeri var. Türk ədəbiyyatşünaslarının bəziləri ilk tarixi roman kimi Ə.Midhətin “Yeniçərilər” romanını nümunə kimi göstərsələr də, əsərin bu janrın tələblərinə cavab vermədiyi aşkar edilmişdir. Belə ki, yazıçı əsərdə

tarixi dövrdən bəhs etməmiş, tarixi sadəcə hadisələr fonuna montaj edərək macəra romanı yazmışdır. Namiq Kamalın "Cezmi" əsəri isə türk ədəbiyyatında qərb üslubunda yazılan və tarixi roman xüsusiyyətlərini ehtiva edən ədəbi nümunədir.

- Türk tarixi romanın keçdiyi inkişaf dövrlərinin araşdırılması onu deməyə əsas verir ki, Tənzimat dövründən sonrakı mərhələ olan Sərvət-i Fünun dövründə (1895-1901) tarixi roman yazılmamış, Milli ədəbiyyat dövrünün (1911-1923) sənətkarları isə tarixlə maraqlansa da, əsasən tarixi hekayələr yazmaqla kifayətlənmişlər.

- XX əsrin əvvəllərində baş vermiş Trablisqərb, Balkan və I Dünya müharibələri kimi bir sıra əhəmiyyətli tarixi hadisələr bütövlükdə türk ədəbiyyatına təsir etmiş, 20-40-cı illəri isə Türkiyənin ədəbi-mədəni və ictimai-siyasi həyatında həlledici dövr olaraq yadda qalmışdır. Cümhuriyyət qurulduqdan sonra ortaya çıxan ilk populyar tarixi romanlar, tarixi macəra tərzində yazılan, ədəbi-estetik cəhətdən zəif, dastan və xalq hekayəsi üslubunda yazılmış əsərlər idi. Turxan Tan, Abdullah Ziya Kozanoğlu, Firudin Fazil Tülbəntçi, Rəşad Əkrəm Qoçu və s. yazıçılar Osmanlı tarixindən bəhs edən əsərlərindəki hadisələr saraydaxili və ya siyasi çəkişmələr müstəvisində qurulmuşdur.

- XX əsrin 60-cı illərindən sonra tənqidi və ideoloji yanaşmanı ehtiva edən, yeni məzmun, forma və ifadə tərzində yazılan romanları 1980-ci ildən sonra psixoloji, fantastik və fərdi mövzuların geniş yer verildiyi postmodern romanlar əvəzləyir.

- 1950-80-ci illərdə Türkiyənin ictimai-siyasi həyatında baş verən hərbi çevriliş və memorandumlar, sosial həyatdakı yeniliklər dövrün ədəbiyyatında öz əksini tapmış, bu dövrün türk ədəbiyyatında daha çox populyar tarixi romanlar və modenist üslublu tarixi romanlar yazılmışdır.

- Dissertasiya işində tədqiqata cəlb edilən dövrdə qələmə alınmış tarixi romanlar uzaq keçmişdən (Səlcuq və Osmanlı dövlətinin yaranma tarixi) və yaxın keçmişdən (Milli Mübarizə dövrü hadisələri) bəhs edən romanlar olaraq qruplaşdırılmışdır.

- Səlcuq və Osmanlı dövlətlərinin quruluşu tarixlərindən bəhs edən romanlarda dövlətin quruluş fəlsəfəsində qəhrəmanlıq dastanlarının xüsusi rola malik olması göstərilir. Bu qəbildən olan

əsərlərdə islamdan əvvəlki inanc və simvollar islami dəyərlərlə birgə istifadə edilərək dövlətin yaranmasına diqqət çəkilmişdir.

- Təhlillər göstərir ki, türk tarixi romanlarında yazıçılar bu sahədəki ənənələri davam etdirməyə, qoruyub yaşatmağa səy göstərirlər. Kamal Tahir, Tarıq Buğra, Mustafa Nəcati Səpətçioğlunun Səlcuq və Osmanlı dövlətlərinin quruluş dövründən bəhs edən tarixi əsərlərində minilliklər boyu davam edən dastan ənənələri ilə İslam adətlərinin sintez şəkildə əks olunduğu müşahidə edilir.

- Türk tarixi romanlarının bir çoxunda dövlətin yaranması, birlik, bərabərlik, sosial ədalətin, bütövlüyün təminedici qüvvəsi kimi dərvişlər göstərilir. Bu yazıçılar içərisində yalnız Kamal Tahirin "Dövlət Ana" əsərində dərviş tipinə fərqli, marksist ideoloji yanaşma görünür. Yazıçı Osmanlı dövlətinin yaranmasında dərvişlərin mənəvi cəhətdən deyil, sosial və maliyyə cəhətdən yardım etməsinin göstərir.

- Tarixi romanlarda milliyətçilik ideyaları daha çox Milli-azadlıq uğrunda mübarizə dövrünün (1919-1923) hadisələrindən bəhs edən ("Əsir şəhərin insanları", "Əsir şəhərin məhbusu", "Qalpaqlılar", "Doludizgin", "Kiçik ağa", "Firon imanı", "Var olmaq") romanlarda əks olunmuşdur.

- Uzaq keçmişdən (Səlcuq və Osmanlı dövlətlərinin yaranma tarixindən) bəhs edən tarixi romanlarda dövlətin yaranmasında, birlik və bərabərliyin, sosial ədalətin təmin olunmasında dinin mühüm roluna diqqət çəkilir. Yalnız Kamal Tahirin marksist yanaşma ilə yazdığı "Dövlət Ana" romanında Osmanlı dövlətini dinə əsaslanan bir dövlət kimi görmədiyi təsvir olunur. Əsərdəki dərvişlər dövlətin qurucusu kimi təqdim edilmir, əksinə təsvir edilən din adamları dünya malına olan düşkünlüyü ilə önə çıxarılır.

- Türk tarixi romanlarının bir çoxunda qədim türk inanclarından, dastanlarda yer alan motivlərdən geniş istifadə olunmuş, tarixi romanlarla qədim türk ənənələri arasında əlaqə yaradılmışdır.

- Müqayisəli təhlillər göstərir ki, Milli-azadlıq mübarizəsi dövrünün tarixi romanlarında həqiqi dini dəyərlər deyil, dini istismar edən, din pərdəsi altında avam insanların həyatını məhv edən, hiyləgərliyi ilə seçilən, düşmənlərlə dostluq edən mollalar görünür. Dinə və din adamına qarşı olan mənfi yanaşma tarixi romanlarda 1960-cı illərin sonuna qədər davam etmişdir. Bu dövrə qədər tarixi

romanlarda mənfi obraz kimi təqdim olunan din adamına münasibət ilk dəfə Tarıq Buğra tərəfindən dəyişdirilmiş, yazıçının romanlarında din xalqı birləşdirici vasitə kimi ələ alınmışdır.

- Türk tarixi romanlarında qadının cəmiyyətdəki və ailə həyatındakı yeri, rolu, vəzifəsi yaşadıqları tarixi dövrə və mədəniyyət səviyyəsinə görə müxtəliflik göstərir. Osmanlı dövlətinin quruluş tarixindən bəhs edən tarixi romanlarda qadın, cəmiyyətdə dövlətin yarandığı gündən etibarən öz ərinin yanında dayanan, ona kömək edən qüvvə kimi təsvir olunduğu halda, bəzi romanlarda türk qadınının cəmiyyətdəki rolunun islam dininin qəbulundan sonra azalması, hətta bəzi romanlarda qadınların həyatının tamamən arxa plana keçməsi müşahidə edilir. 1950-80-ci illərin tarixi romanlarının müqayisəli təhlili imkan verir deyək ki, bu dövrdə yaranan əsərlərin bir çoxunda həm Milli-azadlıq uğrunda mübarizə dövrünün, həm də Cümhuriyyət Türkiyəsinin qadınlarını igidliyi və döyüşkənliyi ilə seçilən, kişilərlə çiyin-çiyinə vuruşan, namusunu hər şeydən üstün tutan, milli adət-ənənələrə sadiq, sədaqəti ilə seçilən ləyaqətli bədii obrazlar kimi görürük.

**Dissertasiyanın əsas nəticələri müəllifin aşağıdakı məqalələrində əks olunmuşdur:**

1. Milli Mücadilənin Tarık Buğranın tarixi romanlarında bədii əksi // Uluslararası "Türk Dünyasında Milli Mücadele ve Edebiyat", – Bakı: TDK Yayınları, − 12-15 iyun, − 2019, − s. 121-129. (Uluslararası-Türk-Dünyasında-Millî-Mücadele-ve-Edebiyat-Sempozyumu-Bildirileri.pdf)
2. Türk tarixi romanlarında dövlət quruluşu // İsmayıl Şıxlı yaradıcılığına həsr olunmuş "Filologiyanın aktual problemləri" beynəlxalq konfrans, − Bakı: BAU, − 3-4 dekabr, 2019, – s. 222-226.
3. Tarık Buğranın "Küçük Ağa" romanında qəhrəmanların mənəvi təkamülü // – Bakı: Şərq Araşdırmaları, Elmi nəzəri jurnal – 2020. № 2, – s. 51-57. (Eastern_Studies_2020_v_1.pdf)
4. Ahmet Mithat Efendi yaradıcılığında tarixi roman janrı // – Türk dillərinin və ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri beynəlxalq elmi konfrans, – Sumqayıt: SDU №4, – 20-21 may, – 2021, – s. 328-332.

5. Türk ədəbiyyatında tarixi roman janrının nəzəri aspektləri // – Bakı: Şərq Araşdırmaları, elmi nəzəri jurnal, – 2022. №1 (5), – s. 67-71. (Eastern_Studies_2022_v_1.pdf)

6. Walter Scott`tan Günümüze Tarihi Romanın Gelişimi // VI Uluslararası Türklerin Dünyası Sosyal Bilimler Sempozyumu, – Ankara: Türklerin Dünyası Enstitütüsü, – 13-15 may, – 2022, – s. 927-941. ((PDF) VI. Türklerin Dünyası Sosyal Bilimler Sempozyumu Tam Metin Bildiri Kitabı)

7. Tarihi Romanın Doğuşu ve Namık Kemal // I Uluslararsı Türkoloji Kongre "Arayışlar ve Yönelimler", – Karabük: Karabük Üniversitesi, – 16-18 may, – 2022, – s. 166-174. (12689202283530.pdf)

8. Türk edebiyatının Milli Mücadele konulu tarihi romanları // Zaferin 100. Yıl dönümünde Milli Mücadeleye yeni bakışlar, – Ankara: Sonçağ, – 8-10 iyun, – 2022, – s.775-786.

9. Women's portraits in Turkish historical novels // – Україна: Актуальні Питання Гуманітарних Наук, – 2023. № 64, том 1, – s. 240-246. (34.pdf)

10. Tarixi roman janrı və Valter Skott // – Bakı: AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Əlyazmalar Yanmır Elmi məqalələr toplusu, – 2023. c. 9, №1 (16), – s. 93- 98. (Journal of Manuscripts don't burn-Vol.9, No:1)

11. Türk ədəbiyyatında populyar tarixi roman janrı // – Bakı: Türk filologiyası Azərbaycan Respublika Elm və Təhsil Nazirliyi Bakı Dövlət Universiteti, – 2023. №1, – s. 101-107.

12. Türk tarixi romanlarında qadın obrazları // – Bakı: Şərq Araşdırmaları Elmi nəzəri jurnal, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, – 2023. Vol 5 №1 – s. 69-74 .

13. Türk tarixi romanın təşəkkül və inkişaf tarixi // – Bakı: Filologiya məsələləri AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2023. №8 – s. 396-402. (Microsoft Word - SON 8.doc)

14. Populyar türk tarixi romanların nəzəri aspektləri // BMU Gənc Tədqiqatçıların VII Beynəlxalq Elmi Konfransı, – Bakı: BMU, – 28-29 aprel, – 2023 – s.1854-1858.

15. Tarixi romanlarda vətənpərvərlik duyğuları // Türk dünyasının mədəniyyət paytaxtı Şuşa", Respublika elmi konfransı, – Şamaxı:

ADPU, – 14 dekabr, – 2023, – s. 420-424. (Şuşa Konfrans_Kitab.pdf)

16. Religion in Turkish historical novels // Türkiye – Akademik Tarih ve Düşünce, – 2024. cild 11, № 2, – s. 906-916. (3877786)

17. Türk tarixi romanlarında dərviş obrazı // BMU Gənc Tədqiqatçıların VIII Beynəlxalq Elmi Konfransı – Bakı: BMU, – 26-27 aprel, – 2024, – s. 1981-1986. (GTK_VIII_TAM_2.pdf)

18. Türk tarixi romanlarında Malazgird // Gənc Tədqiqatçıların VI Respublika elmi konfransı – Bakı: , – 10 mart, – 2023, – s. 44-46.

19. Türk ədəbiyyatının ilk tarixi romanı "Yeniçerilər" yoxsa "Cezmi" // "Tədris, Öyrənmək və Təhsil" mövzusunda Respublika Elmi praktik konfrans, – Bakı: Qərbi Kaspi Universiteti, – 5may, – 2023. – s. 180-182. (HA_100illikyubuley_konfrans5may2023.pdf)

Dissertasiyanın müdafiəsi 11 iyun 2025-ci il tarixində saat $12^{00}$ -da Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.18 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı şəhəri., Hüseyn Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas bina, VII mərtəbə, akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun akt zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 6 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:05.05.2025

Kağızın formatı:A5

Həcm: 47927

Tiraj:100